# DAŞKƏSƏN: DAĞ RAYONUNUN İQTİSADİYYATI GÜCLƏNİR

**Daşkəsən rayonunda 2017-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirildi. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev hesabat məruzəsi ilə çıxış edərək qeyd etdi ki, rayonda 2017-ci ildə uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur. Ümumi məhsul buraxılışında 2016-cı illə müqayisədə 2017-ci ildə kənd təsərrüfatı məhsulları 35 milyon 212 min manat, nəqliyyat üzrə 3 milyon 112 min manat, ticarət və ictimai iaşə xidmətləri üzrə 21 milyon 824 min manat olmuşdur. Hesabat ilində rayonda ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 95 faiz təşkil etmişdir. Cari ildə də rayonda müxtəlif qurumlarda olan 151 müvəqqəti iş yerləri saxlanılaraq vaxtı uzadılmış və əlavə olaraq 49 yeni iş yerləri açılmışdır.**

2017-ci ildə rayonda sənaye müəssisələrində çalışan bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 363,9 manat, dövlət mülkiyyətində 375,5 manat, qeyri-dövlət mülkiyyətində isə 184,3 manat təşkil etmişdir.

2017-ci ildə rayonun büdcəsinin icrası gəlirlər üzrə 100,2 faiz, xərclər üzrə 94,1 faiz yerinə yetirilmişdir.

2017-ci ildə rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da bəzi sahələr üzrə həmin işlər davam etdirilməkdədir. Daşkəsən şəhərinin əsas meydan və küçələrinə yeni asfalt örtüyü salınmışdır. Şəhərin küçələrindəki istinad divarlarında, səkilərdə təmir işləri aparılmışdır. Yaponiyanın Azərbaycandakı səfirliyinin qrantı hesabına "Yuxarı Daşkəsən qəsəbəsində İçməli Su Təchizatının Yaxşılaşdırılması" layihəsinin 26 iyul 2017-ci il tarixdə açılışı olmuşdur.

3300 nəfər əhalinin yaşadığı, 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim olunmuşdur.

2016-2017-ci tədris ilində məzunlarımızdan 104 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdi. Onlardan 59 nəfəri ölkənin müxtəlif nüfuzlu ali, 20 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunan məzunlarımızdan 2 nəfəri 600-dən, 3 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Daşkəsən rayonundan 40 nəfər məktəbli "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində 23-26 mart 2017-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

Heydər Əliyev Mərkəzinə 2017-ci il ərzində kollektiv və fərdi qaydada 6900 nəfər ekskursiyaya gələn olmuşdur. Muzeydə kompüter və ingilis dili kursları, rəqs və rəsm dərnəyi fəaliyyət göstərmiş və il ərzində müxtəlif məzmunda tarix dərsləri və digər tədbirlər keçirilmişdir.

49 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatların işçiləri tibbi müayinədən keçirilmişdir. Daşkəsən şəhərinin Heydər Əliyev meydanında 16 mart 2017-ci il tarixdə qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan "N" saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

Eyni zamanda, 31 avqust 2017-ci il tarixdə rayonda Qurban bayramı münasibətilə geniş tədbir keçirilmişdir.

Hesabat ilində rayon üzrə idman yarışları və digər sahələrdə 8703 gəncin iştirak etdiyi 65 tədbir həyata keçirilmişdir. İdmançılarımız müxtəlif respublika və zona yarışlarında 5 qızıl, 14 gümüş, 12 bürünc medal olmaqla cəmi 31 medal qazanmışlar.

Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı yanında Şura iclasında təsdiq olunmuş qrafikə uyğun olaraq yerlərdə keçirilmiş hesabat yığıncaqlarında 1761 nəfər iştirak etmiş, 172 nəfər çıxış etmişdir.

2017-ci il ərzində 38 yaşayış məntəqəsində səyyar qəbul keçirilmiş, 1749



nəfər iştirak etmiş, 221 müraciət olunmuşdur. Səyyar qəbullarda qaldırılan məsələlərin həll edilməsi üçün aidiyyəti üzrə müvafiq tapşırıq və göstərişlər verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" sərəncam vermişdir. Həmin sərəncamla növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunmuşdur. Əvvəlki seçkilərdə olduğu kimi, builki prezident seçkisinin də Daşkəsən rayonunda seçki qanunvericiliyinə uyğun, yüksək səviyyədə, seçicilərin fəallığı ilə keçirilməsi təmin ediləcəkdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov və millət vəkili Rövşən Rzayev çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən, möhtəşəm layihələrin icrasından, qarşıdakı perspektivlərdən ətraflı söhbət açdılar.

Sonra məruzə ətrafında Daşkəsən Rayon Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nüsrət Vəliyev, Daşkəsən Rayon Kənd Təsərrüfatı idarəsinin rəisi Şahbaz Mehdiyev çıxış etmiş, görülmüş işlərdən, qarşıda duran ümdə vəzifələrdən danışmışlar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2018.- 11 mart.- S.6.